

III Bakı Beynəlxalq Forumunda iştirak etmək üçün Azərbaycanda səfərdə olan Türkiyənin doqquzuncu prezidenti Süleyman Dəmirəl bu gün Ankaraya dönüb.
Sabiq prezidenti Heydər Əliyev Beynəlxalq Aeroportudan Azərbaycan Prezidenti Administrasiyası rəhbərinin müavini Novruz Məmmədov, Türkiyənin Azərbaycandakı səfiri İsmail Alpər Coşğun, hərbi attaşesi Hasan Nevzat Taştelər və digər şəxslər yola salıblar.

Hava limanında jurnalistlərə açıqlama verən S. Dəmirəl səfəri müsbət qiymətləndirdiyini, Bakıda faydalı müzakirələr apardığını bildirib: «Qardaş Azərbaycan xalqına sevgilərimi izhar etmək istəyirəm. Azərbaycan prezidenti İlham Əliyev bizə böyük qonaqpərvərlik göstərdi. Görüşümüzdə iki ölkə arasında əlaqələrlə bağlı faydalı müzakirələr apardım. Ayrıca olaraq Beynəlxalq Humanitar Forumda dünya xalqlarına müraciət etdim. Çox məmnun dönürəm. Faydalı çalışmalarım oldu».

S. Dəmirəl qeyd edib ki, Azərbaycan və Türkiyə arasında münasibətlər gerçəkdən çox güclü və mükəmməldir: «Sabah daha da yaxşı olacaq. Biz bir-birimizi bir millət, iki dövlət olaraq görürük».

Sabiq prezident bildirib ki, hər iki ölkənin iqtisadiyyatı sürətlə böyüyür. İyirmi il əvvəl buğda almağa vəsaiti olmayan Azərbaycan bu gün Türkiyəyə 15 milyard ABŞ dollarından artıq sərmayə yatırır: «Neft kəməri, iki qaz xətti tikilib. Qars-Bakı dəmir yolu xətti çəkilir. Bunlar nə qədər gözəl işlərdir».

Azərbaycan Prezidenti Administrasiyası rəhbərinin müavini Novruz Məmmədov isə qeyd edib ki, Azərbaycan xalqı böyükdən kiçiyinə Süleyman Dəmirəli tanıyır və sevir. N. Məmmədov deyib ki, Azərbaycan-Türkiyə əlaqələrinin bugünkü yüksək səviyyəyə çatmasında S. Dəmirəlin böyük rolu olub.